Azərbaycan Respublikasının beynəlxalq hava limanlarına müntəzəm əsasda çarter uçuşlarını (proqram üzrə) yerinə yetirilməsi ilə bağlı sorğuların göndərilməsi proseduru

Ümumi müddəalar

1. Dövlət Mülki Aviasiya Agentliyinə (bundan sonra – Agentlik) həvalə edilmiş funksiyalardan biri Azərbaycan Respublikasının beynəlxalq hava limanlarına müntəzəm əsasda çarter uçuşlarını (proqram üzrə) yerinə yetirilməsinə icazə verilməsi məsələsinə baxılması və icazələrin verilməsidir.

2. Bütün sənədlər ingilis və ya rus dilində təqdim edilməlidir.

3. Aviaşirkətin Azərbaycan Respublikasında istismarı qadağan edilmiş hava gəmiləri ilə uçuşların yerinə yetirilməsi ilə bağlı sənədləri baxılmaq üçün qəbul edilməyəcək.

4. Hava limanının səlahiyyətli orqanının təqdimatına əsasən, aviaşirkət ona ayrılmış slotdan 30 (otuz) təqvim günü ərzində istifadə etmədiyi halda Agentlik qabaqcadan xəbərdarlıq etmədən aviaşirkətə verilmiş icazəni ləğv etmək hüququnu özündə saxlayır.

5. Agentlik elektron rabitə və poçt xidmətlərinin texniki nasazlıqları ilə əlaqədar gecikmələrə dair iddiaları qəbul etmir - sorğu və sənədlərin vaxtında təqdim olunmaması icazəni verməkdən imtina üçün əsasdır.

6. İcazə verilməsindən imtinanın və ya verilmiş icazənin ləğv edilməsinin səbəbləri:

- hava limanının səlahiyyətli orqanı tərəfindən təsdiq edilmiş SLOTUN olmaması;
- aviaşirkətin müraciət məktubunda məlumatların tam olmaması;
- natamam sənədlər zərfi;
- tələb olunan əlavə sənədlərlərin təqdim edilməməsi;
- aviaşirkətin təqdim etdiyi sənədlərin müddətinin bitməsi.

7. Sənədlərin dəyişdirilməsi və ya yenilərinin təqdim edilməsi zərurəti yarandıqda aviaşirkət dəyişikliyin qüvvəyə minməsi tarixinə 15 (on beş) iş günü qalmış sorğu təqdim etməlidir.

Tələb olunan sənədlərin siyahısı

1. İlkin müraciət

1. Aviaşirkətin rekvizitlərinin (hüquqi və poçt ünvanları, baş ofisin əlaqə məlumatları), müntəzəm əsasda çarter uçuşları (proqram üzrə) üçün nəzərdə tutulan bütün hava gəmilərinin, reysin nömrəsinin, marşrutun, uçuş cədəvəlinin, təyinat hava limanlarının ICAO və IATA kodları ilə birlikdə adlarının, hava gəmilərinin növ, qeydiyyat nömrəsi və sərnişin oturacaqlarının sayının, eləcə də yükün maksimal çəkisinin qeyd edildiyi rəsmi məktub.

2. Növbəti IATA mövsümündə qüvvədə olcaq İstismarçı sertifikatı və istismar tələbləri.

3. Qeydiyyat dövlətinin mülki aviasiya orqanı tərəfindən verilmiş sənədlər (hər bir hava gəmisi üçün):

- Dövlət qeydiyyat haqqında sertifikat;
- Uçuş yararlılığı sertifikatı;
- Səs-küy üzrə sertifikatı
- Radioavadanlıq sertifikatı;
- Sığorta şəhadətnaməsi (hava gəmisinin, ekipajın, sərnişinlərin, baqajın, yükün və üçüncü şəxslər qarşısında məsuliyyətlə bağlı).

4. İcarəyə götürülmüş hava gəmiləri üçün:

- aviaşirkətin hava gəmisinin icarəsi ilə bağlı müqaviləsi - bütün məlumatlar, tərəflərin rekvizitləri və müqaviləinin sona çatma tarixi göstərilməklə;
- İcarəyə verən və icarəyə götürən dövlətlərin mülki aviasiya orqanları arasında 83bis müqaviləsi,
- hava gəmisində aparılmış son müfəttiş yoxlamasının nəticəsi.

5. Hava limanının səlahiyyətli orqanı tərəfindən təsdiq edilmiş “SLOT” un surəti.

6. Aviaşirkətlərin Aviasiya təhlükəsizliyi proqramı.

7. Aviaşirkətin Azərbaycan Respublikasındakı nümayəndəsinin və ya aviaşirkət tərəfindən səlahiyyət verilmiş agentin pasport məlumatlarının qeyd edildiyi etibarnamə (mövcud olduqda Azərbaycan dilinə notarial qaydada təsdiq edilmiş tərcüməsi ilə birlikdə təqdim edilir).

8. IOSA istismarçısının sertifikatı (mövcud olduqda).

9. Agentlik yuxarıda göstərilənlərdən savayı başqa sənədləri də aviaşirkətdən tələb etmək hüququnu özündə saxlayır.

II. Təkrar sorğu

1. 1-5 -cı bəndlərdə göstərilən sənədlər.
2. 6-8 bəndlərində göstərilən sənədlər (dəyişikliklər edildikdə).